KHAZAR REVIEW
№ 382 Mart 2019

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

# İÇİNDƏKİLƏR


Nizami layihəsinin 8-ci görüşü . . . . . . . . . . 4
Universitet xəbərləri . . . . . . . . . . 5
*Lamiyə Pənahova.* Maryam Adli: "Xəzər Universitetində magistr təhsilimi bitirmək üzrə olsam da, vidalaşmaq fikrim yoxdur ("Xəzər"in əcnəbi tələbəsi ilə müsahibə) . . . . . . . . . . 7
İqtisadiyyat və menecment fakültəsi və Milli Mühasiblər Forumunun seminarı . . . . . . . . . . 8
Elmi Şuranın növbəti iclası . . . . . . . . . . 14
Professor Hamlet İsaxanlı 20-ci əsrin "Polymath"-ları sırasında . . . . . . . . . . 18
Ümumdünya Mülki Müdafiə Gününə həsr edilmiş tədbir . . . . . . . . . . 22
Professor Hamlet İsaxanlının doğum günü münasibətilə tədbir keçirildi . . . 26
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun xəbərləri . . . . . . . . . . 32
İqtisadiyyat və menecment fakültəsinin tələbələri Xətai Sənət Mərkəzində . 37
"Çoxbilginlik" mövzusunda seminar . . . . . . . . . . 38
"Elm və Sənət Məclisi"nin 69-cu məşğələsi . . . . . . . . . . 40
Waqas Ahmedin kitabının təqdimatı . . . . . . . . . . 42
"Elm və Sənət Məclisi"nin 70-ci məşğələsi . . . . . . . . . . 44
Çex Respublikasının Azərbaycandakı səfirinin müavini Xəzər Universitetində mühazirə oxudu . . . . . . . . . . 48
8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bayram şənliyi . . . . . . . . . . 50
Professor Hamlet İsaxanlının Türkiyəyə işgüzar səfəri . . . . . . . . . . 52
*İsaxan İsaxanlı.* Biz gəldi-gedərik, sən yaşa, "Dünya"! . . . . . . . . . . 68
Direktorlar və Qəyyumlar Şurasının illik toplantısı . . . . . . . . . . 72
"Xəzər"də Novruz şənliyi . . . . . . . . . . 74



1995-ci ilin
yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Redaksiya heyəti:**
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

**İngilis dilində mətnlərin redaktoru:**
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universitəsi · Bakı · 1991

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

**It has been published since January 1995**

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isaxanli

**Associate editor:**
Alirza Balayev

**Editorial members:**
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova
**Photo:**
Multimedia Centre





# Biz gəldi-gedərik, sən yaşa, "DÜNYA"!

**İsaxan İsaxanlı**

*"Dünya" məktəbinin 20 illik yubiley mərasimində çıxış*

Düz 20 il bundan əvvəl, 1998-ci ildə Xəzər Universitetinin Neftçilər binasında 2-ci mərtəbədə bir sinif ayrıldı, bir müəllim dəvət edildi və bir neçə kiçikyaşlı şagirdlə, bu gün yubileyini qeyd etdiyimiz "Dünya" məktəbi fəaliyyətə başladı. O zaman məktəbin adı "Dünya" deyildi, sadəcə olaraq, "Xəzər Universiteti nəzdində orta məktəb" adlanırdı.

Bir müddət sonra, məktəbin ayrıca hüquqi şəxs kimi qeydiyyatdan keçməsi üçün nizamnaməsi hazırlanarkən ona daha konkret ad qoymalı olduq. Zamanımız az idi və təcili olaraq nizamnaməni Təhsil Nazirliyinə göndərməli idik. Bəzi adlar təklif edildi və birdən Hamlet müəllim "çox düşünməyə vaxtımız yoxdur, bir ad yazıb göndərin, məsələn "Dünya" - dedi. Elə həmin gündən məktəbin adı "Dünya" olaraq qaldı. İndi 20 illik bir məsafəyə geri boylandıqda Hamlet müəllimin nə qədər uzaqgörənliklə bir ad seçdiyinin şahidi oluruq. Bu 20 il ərzində o balaca "Dünya" yavaş-yavaş böyüdü, böyük dünyaya açıldı, indi səsi bütün dünyadan gəlir "Dünya" məktəbinin.

Bəs görəsən bizim "Dünya"mızın yalnız adımı dünyadır, yoxsa onun məzmununda, canında, ruhunda da böyük dünyamızla qovuşan məqamlar varmı? Bunun üçün bizim balaca "Dünya"mızla böyük dünyamız arasında, "Dünya" məktəbinin şux, oynaq ruhuna uyğun olaraq, kiçik poetik müqayisələr, paralellər aparmaq qərarına gəldim.

Dünya mövzusu ədəbiyyatda, xüsusən də poeziyada mərkəzi yer tutan mövzulardandır. Dünya haqqında çoxlu şeirlər yazılmış, dünyanın gözəlliyindən, qəribəliyindən, sirli-soraqlı olmasından, faniliyindən, əbədi və beşgünlük olması və s. məsələlərlə bağlı gözəl poetik tablolar yaradılmışdır. Dünya haqqında düşündükdə, əlbəttə ki, adamın yadına düşən ilk şeir böyük şairimiz Səməd Vurğunun "Dünya"sı olur.

*Ulduzlar havanın bağrını dəlir,*
*Qayalı dağlardan duman yüksəlir,*
*Xəyalım gecəni salama gəlir,*
*Çapdırır atını birbaşa dünya.*

Nədir bu bənddə bizim "Dünya"mızla uzlaşan məqam?

"Dünya" məktəbi keçdiyi bu 20 illik müddətdə nəinki Azərbaycan təhsil məkanında öz sözünü deyə bildi, öz dəstxətini yarada bildi, müəyyən hörmət və nüfuz qazana bildi, üstəlik, orta təhsil sahəsində dünyada geniş nüfuz qazanmış beynəlxalq İB proqramının Azərbaycanda tətbiq edilməsində əvəzsiz rol oynadı, Azərbaycanın tanınmış təhsil mərkəzi olmaqla yanaşı, həm də söz və sənət adamlarının, mədəniyyət və incəsənət xadimlərinin sevə-sevə gəldiyi bir mədəniyyət mərkəzinə çevrildi, orta məktəblər arasında yeganə özəl məktəb olaraq Azərbaycan Respublikası Prezidentinin xüsusi mükafatına layiq görüldü (2012-2013-cü tədris ili) və ümumilikdə, Azərbaycanın ən yaxşı orta təhsil məktəblərindən biri olmağı bacardı, özü də adı kimi bir dünya oldu.

Odur ki, cəsarətlə deyə bilərik ki, "Çapdırır atını birbaşa "Dünya"!

*Bir də görürsən ki, açılan solur,*
*Düşünən bir beyin, bir torpaq olur,*
*Bir yandan boşalır, bir yandan dolur,*
*Sirrini verməyir sirdaşa dünya.*

Doğrudan da, bizim böyük dünyamızda olduğu kimi, "Dünya" məktəbi də "Bir yandan boşalır, bir yandan dolur". "Dünya" məktəbinə dünyanın müxtəlif ölkələrindən müəllimlər dəvət olunur, işləməyə başlayırlar, lakin bir müddət sonra Dövlət Miqrasiya Xidməti onlardan bəzilərinə yeni iş icazəsi vermir (maraqlıdır!), onlar öz ölkələrinə qayıtmalı olurlar və boşalan yerləri müxtəlif məktəblərdən gələn başqa müəllimlərlə doldururuq. 11-ci sinif şagirdlərimiz məzun olaraq məktəbdən ayrılırlar və onlardan boşalan yerləri məktəbin 1-ci sinfinə və "Dünya ana məktəbi"nə gələn şagirdlər, dərs ili ərzində başqa məktəblərə gedən şagirdlərimizin yerini isə təhsilini davam etdirmək üçün digər məktəblərdən gələn şagirdlər doldurur və beləcə, həyat davam edir "Dünya"da ("Dünya"da tam ahəng var!).

O ki qaldı "Sirrini verməyir sirdaşa dünya" məsələsinə, burada bizim "Dünya"mız dünyadan nəinki geri qalmır, üstəlik, bir az da irəli getmişdir. Fikrim quru söz olaraq qalmasın deyə bir hadisəni yada salmaq istəyirəm. Təxminən 2 il bundan əvvəl biz yeni işçilərin necə işə götürülməsi (xidməti müqavilələr, əmək müqavilələri), maaş və vergi məsələlərinin düzgün tənzimlənməsi məqsədilə Xəzər Universitetində bir siyasət formalaşdırmışdıq. Nailə xanım həmin siyasətin "Dünya" məktəbində də tətbiq olunması üçün, məktəbin baş mühasibi Solmaz xanımla bir müzakirə aparmağımı istədi. Solmaz xanım gəldi, oturub söhbət etdik. Mən söhbətimizin daha canlı və konkret olması məqsədilə "Solmaz xanım, bu məsələləri daha canlı şəkildə anlamaq üçün gəlin müzakirəmizi konkret rəqəmlər üzərində quraq. Məsələn, Mərufə xanım nə qədər maaş alır?" deyə sordum.

- İsaxan müəllim, vallah mən onu deyə bilmərəm.

- Bilmirsinizsə, onda zəng edib Rita xanımdan soruşun.

- Yox, İsaxan müəllim, mən Mərufə xanımın nə qədər maaş aldığını bilirəm, sadəcə olaraq, sizə deyə bilmərəm.

Mən bir anlığa düşündüm ki, yəqin Mərufə xanım direktor olduğu üçün bir az yüksək maaş alır və Solmaz xanım bu rəqəmi demək istəmir.

- Yaxşı, Mərufə xanımın maaşını deyə bilmirsən, onda Çiçək xanımın maaşı nə qədərdir? Sən özün nə qədər maaş alırsan?

- İsaxan müəllim, mən heç nə deyə bilmərəm.

Doğrusu, bu məqamda öz-özümə "mən bunlara kömək etmək istəyirəm, bunlar da məndən sirr saxlayırlar" deyə, bir qədər hirsləndim. Amma özümü ələ aldım. Başa düşdüm ki, Solmaz xanımın üstünə ilan da salsam ondan konkret rəqəm ala bilməyəcəm. Doğrusu, kiminsə maaşının konkret nə qədər olduğunu öyrənmək heç məqsədim də deyildi. Sadəcə olaraq, sözgəlişi ortaya çıxmışdı bu sual. Beləliklə də, o vaxt söhbətimizi saxta rəqəmlər üzərində başa vurmalı olduq. İnanın səmimiyyətimə ki, mən hələ bu gün də bilmirəm ki, Mərufə xanım nə qədər maaş alır.

Paralellərimizi Hamlet İsaxanlının "Dünya" şeiri ilə davam etdirək:

*Ümid xəfif olsa belə, könüllərə şəfəq saçar,*
*Xoş əməllər bar gətirər, xoş niyyətlər çiçək açar.*
*İnsanlara qanad verən sevgi adlı möcüzə var,*
*Nəhayətsiz eşq, ehtiras, duyğu çələngidi dünya.*

Düz 20 il bundan əvvəl, bir-birini "gündən-günə daha dolğun, daha incə" hisslərlə, "yerə həsrət yağış kimi, leysan kimi" sevən iki qəlbdə bir xoş niyyət çiçək açdı, bu xoş niyyət xoş əmələ çevrildi – "Dünya" məktəbi yarandı, öz barını verdi, neçə-neçə məzunları dünyanın müxtəlif ölkələrinə səpələndi "Dünya" məktəbinin və bu gün də onlar bu balaca "Dünya"nın şöhrətini böyük dünyaya daşımaqda və onu fəxrlə və ləyaqətlə təmsil etməkdə davam edirlər. Və bütün bunlar "İnsanlara qanad verən sevgi adlı möcüzə"nin gücü ilə baş verdi, çünki sevgidir hər şeyin canı, qanı, sevgidir hər uğurun açarı! "Dünya" məktəbində olan insanlar öz işini sevməsəydi, hər şeyə sevgi ilə yanaşmasaydı, eşq, ehtiras, duyğu bu yolda onlara hakim kəsilməsəydi, heç şübhəsiz, indiyə qədər əldə edilənlərin böyük bir qismi əldə edilə bilməzdi. İşinə vurğunluq, sevgi, eşq, ehtiras, enerji olan yerdə uğur, nailiyyət qaçılmazdır.

*Dünyanı eşq yaşadar,*
*Vurğunluqdan xoş nə var?!*
*Kim deyər ki, sevdalar*
*Gəldi-gedərdi, gülüm?!*

Və:

*Günəş aya baxmasa*
*Ay yerə nur saçarmı?*
*Qoşa qanad taxmasa*
*Quşlar şövqlə uçarmı?* (H.I)

Əlbəttə ki, uça bilməz. Quşların uçması, hələ üstəlik, şövqlə uçması üçün onların bir yox, iki qanada ehtiyacı var. "Dünya" məktəbi də, bir quş kimi, daha doğrusu, bir qartal kimi, iki qanadın – Hamlet və Nailə xanım adlı iki qanadın şövqü ilə havalandı, pərvazlandı, baş vurdu əvvəlcə Azərbaycanın təhsil səmalarına və ordan da üz tutdu dünya səmalarına! Bəli, iki qəlbin birgə döyüntüsünün məhsuludur "Dünya" məktəbi! Burada, istər-istəməz H.İsaxanlının "İkimizdən birimiz" adlı şeirindən bir bənd yada düşür:

*Bir söz deyim müxtəsər,*
*Məhəbbətdir hər əsər.*
*Bir vurmazdı qəlbimiz.*
*Yazılmazdı şeirimiz*
*(Yaranmazdı "Dünya"mız! - İ.I)*
*İkimizdən birimiz*
*Dünyaya gəlməsəydik.*

Əziz dostlar, "Dünya" məktəbinin kollektivi – idarəçilər, müəllimlər, şagirdlər, övladlarının həyatını "Dünya" məktəbi ilə bağlayan valideynlər, balaca "Dünya"nın şöhrətini böyük dünyaya yayan məzunlar, "Dünya" məktəbinin bütün dostları, bir sozlə, öz dünyasını, müəyyən mənada, burda – "Dünya" məktəbində quran, tapan insanlar! "Dünya" məktəbini tanıyan, bilən heç kəsin şübhəsi yoxdur ki, bu günə qədər qazanılanlardan qat-qat çox olacaq bundan sonra əldə olunacaq nailiyyətlər, hələ çox uğurlara imza atacaq "Dünya" məktəbi. Və sizlərin səyi, zəhməti, enerjisi, sevgisi və inamı sayəsində baş tutacaq bütün bunlar. Sizə uğur olsun çıxdığınız bu xeyirxah, çətin, keşməkeşli yolda, məsuliyyətli olduğu qədər də şərəfli yolda! Arzu edirəm ki, qol-budaq atıb böyüsün bu cavan "Dünya"mız, yaşlansın, qocalsın və böyük dünyamız kimi, söz-sənət adamlarımızın əbədi mövzusuna çevrilsin "Dünya" məktəbi, "bu dünya durduqca, o da var olsun!".

## "DÜNYA" JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" məktəbinin nəşri olan "Dünya" jurnalının məktəbin 20 illiyinə həsr olunmuş xüsusi buraxılışı (28-ci nömrə) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.




## A NEW ISSUE OF "DUNYA" JOURNAL HAS BEEN PUBLISHED

Being dedicated to the 20th anniversary of the School, the special edition (number 28) of "Dunya" journal, a monthly journal of Dunya School affiliated with Khazar University, was published by Khazar University Press.